*Layihə*

**Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair**
**TƏLİMAT**

## GİRİŞ

Auditor xidmətinə ictimai etimadın yüksəldilməsi və xidmət bazarında haqlı rəqabətin təmin edilməsi auditorlar tərəfindən yol verilən haqsız rəqabət hallarının vaxtında aşkar edilməsindən və belə hərəkətlərə qarşı adekvat cəza tədbirlərinin görülməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan auditor xidməti bazarında haqlı rəftar üçün zəruri şəraitin yaradılması auditor peşəsinin imicinin yüksəldilməsi və xidmət bazarında haqlı rəqabətin bərqərar olması nöqteyi-nəzərindən vacib olmaqla auditor xidmətinin stabil fəaliyyəti və inkişafı üçün imkanlar yaradır.

Bu məqsədlə haqsız rəqabətə yol verən auditorlara və onların mütəxəssislərinə qarşı təsirli tədbirlər sisteminin işlənib hazırlanması və onların tətbiqi zərurəti "Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair TƏLİMAT"ın ( Bundan sonra "Təlimat" ) tərtib edilməsini aktuallaşdırır.

Eyni zamanda Təlimat, Azərbaycan Respublikası Auditorlar Palatasinin 2020-ci il üzrə iş planının 1.2-ci "Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması" maddəsinə əsasən hazırlanmışdır.

## TƏLİMATIN MƏQSƏDİ

Təlimatın məqsədləri aşağıdakılarıdır:

- Sərbəst auditorlar və auditor təşkilatlarının sağlam rəqabət əsasında fəaliyyət göstərmələri üçün əlverişli şərait yaratmaqdan;
- Sərbəst auditorlar və auditor təşkilatları arasında sağlam rəqabət mühiti yaratmaq və onlar tərəfindən rəqabəti məhdudlaşdıran müqavilələr bağlanmasının qarşısının alınması istiqamətində zəruri tədbirlər görmək və rəqabət qabiliyyətlərinin güclənməsinə yönəldilmiş tədbirlər həyata keçirməkdən;
- Audit bazarında haqsız rəqabət hallarının və maraqlar toqquşmasının tənzimlənməsinə yönəldilmiş tədbirlər görməkdən ibarətdir.

**Əsas anlayışlar**

Bu Təlimatın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**Audit** – əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır.

**Auditor**- auditor adı almaq üçün imtahanları müvəffəqiyyətlə vermiş, sərbəst auditor və ya auditor təşkilatının auditoru qismində fəaliyyət göstərmək hüququ əldə etmiş fiziki şəxsdir/

**Auditor xidməti** - maliyyə hesabatlarının əhəmiyyətli səhvlərdən azad olunmasını təmin etmək məqsədi ilə audit subyektinin maliyyə hesabatlarının və digər məlumatlarının auditor tərəfindən müstəqil yoxlanılması, qiymətləndirilməsi və onun düzgünlüyü, əsaslılığı, habelə bu hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya digər standart və qaydalara uyğunluğu barədə auditor hesabatının verilməsi və ya müvafiq hallarda auditor hesabatında rəy bildirilməsindən imtina edilməsi üzrə görülən və maliyyə təsərrüfat sahəsində əlaqəli xidmətlər göstərilən fəaliyyət sahəsidir.

**Sərbəst auditor** - müəyyən olunmuş qaydada Auditorlar Palatanın üzvlüyünə qəbul edilmiş və respublika ərazisində auditor xidməti göstərmək hüququnu əldə etmiş fiziki şəxs;

**Auditor təşkilatı** - müvafiq qaydada dövlət qeydiyyatına alınmış, Auditorlar Palatasına üzv qəbul edilmiş hüquqi şəxs və ya filial;

**Audit subyektləri** – mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslər(fərdi sahibkarlar), habelə filiallar;

**Beynəlxalq Audit Standartları** – Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən qəbul olunmuş və təsdiqlənmiş Standartlar;

**Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi** – Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən qəbul olunmuş və təsdiqlənmiş Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi;

**rəqabət** — auditorlar arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin auditor xidməti bazarında xidmət dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və sifariş.iyə lazım olan xidmətin göstərilməsini stimullaşdırır;

**haqsız rəqabət** — auditorlar sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər auditorlara (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətləri;

**qanunsuz ödənişlər** — rəqabət mübarizəsində əsassız (haqsız) üstünlüklər əldə etmək məqsədi ilə dövlət orqanlarının vəzifəli şəxslərini, siyasi partiyalarda rəhbər vəzifə tutan şəxsləri, kütləvi informasiya vasitələri işçilərini, audit sifarişçilərinin rəhbərliyini və əməkdaşlarını öz tərəfinə çəkmək üçün nəzərdə tutulan maddi və ya qeyri-maddi xarakterli ödənişlər;

**rəqib** — auditor xidməti (qarşılıqlı əvəz oluna bilən xidmətin) bazarına xidmət çıxara bilən digər auditordur.

**Haqsız rəqabətə dair normativ hüquqi sənədlər**

Aşağıdakı normativ hüquqi sənədlərdə mövcud olan müddəalar Haqsız rəqabətin hüquqi əsaslarını müəyyın edir:

1. Azərbaycan Respublikasının normativ hüquqi aktları

Normativ hüquqi akt — səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilmiş, göstərişləri ümumi məcburi xarakter daşıyan, hüquq normalarını müəyyən edən, dəyişdirən və ya ləğv edən, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş rəsmi yazılı sənəddir.

Ölkəmizdə sahibkarlıq sahəsində, o cümlədən auditor xidməti bazarında haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını müəyyən edən, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradan, bazar subyektlərinin haqsız rəqabət metodlarından istifadəyə görə məsuliyyətini nəzərdə tutan qanunvericilik aktı "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunudur. Eyni zamanda haqsiz rəqabətlə bağlı 2003-2019-cu illərdə bir sıra Azərbaycan Respublikası Qanunlarında, Dövlət Proqramlarında, mərkəzi icra hakimiyyəti orqanlarının fərman və qərarlarında bu və ya digər dərəcədə haqsız rəqabətlə bağlı maddələr mövcuddur.

"Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını, onun şamil olunduğu subyektləri müəyyə edir və Qanunda Əsas anlayışlar, Haqsız rəqabət haqqında qanunvericiliyin icrasına nəzarət edən orqanlar, Haqsız rəqabətin formaları, Rəqibin təsərrüfat fəaliyyətinin təqlidi, Rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması, Rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə, Haqsız sahibkarlıq fəaliyyəti, Haqsız işgüzarlıq davranışı, İstehlakçıların çaşdırılması, Sahibkarlıq fəaliyyətində qanunsuz ödənişlərin yolverilməzliyi ehtiva olunmuşdur. Qanunda həmçinin qanunun pozulmasına görə məsuliyyət, Qanuna riayət olunması sahəsində antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətləri və bazar subyektlərinin vəzifələri, Maliyyə sanksiyaları, Qanunsuz əldə olunan mənfəətin geri alınması və vurulmuş zərərin ödənilməsi, Haqsız rəqabətə görə məsuliyyət, Azərbaycan Respublikasında antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının göstərişlərindən və qərarlarından şikayət verilməsinə dair müddəalar əksini tapmışdır.

2.Palatanın üzv olduğu Beynəlxalq Peşəkar Təşkilatların sənədləri.

Azərbaycan Respublikasinin Auditorlar Palatasi (Bundan sonra- Palata) 2003-cü il may ayından Avropa Mühasiblər Və Auditorlar Federasiyasıının(EFAA) Və 2008-ci ilin noyabr ayından Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) tam hüquqlqu üzvüdür. EFAA eyni zamanda İFAC-ın regional peşə qurumu kimi təsbit edildiyindən, onun qəbul etdiyi sənədlər İFAC-ın sənədlərinə uyğundur və heç bir konseptual ziddiyyət və maraqlar toqquşması yaratmır.

İFAC-ın norma yaradan - standart, təlimatlar və mənbələr hazırlayan aşağıdakı Şuraları (komitələri) vardır.

Beynəlxalq Audit və Təminat Standartları Şurası (İAASB) qlobal peşədəki ictimai rəğbətini gücləndirən audit, zəmanət və keyfiyyət menecmenti üçün yüksək keyfiyyətli beynəlxalq standartlar müəyyənləşdirir.

Mühasibat Uçotu üzrə Beynəlxalq Təhsil Standartları Şurası (İAESB) texniki bacarıq və peşə bacarıqları, dəyərlər, etika və münasibətləri müəyyən edən peşəkar mühasibat təhsili üçün standartlar müəyyən edir.

Mühasiblər üçün Beynəlxalq Etik Standartları Şurası (İESBA) peşəkar mühasiblər üçün yüksək keyfiyyətli, beynəlxalq səviyyədə etik standartlar, o cümlədən auditor müstəqilliyi tələblərini təyin edir.

Beynəlxalq Sektor Mühasibat Uçotu Standartları Şurası (İPSASB), ümumi məqsədli maliyyə hesabatlarının hazırlanması üçün dünyada dövlət sektoru subyektlərinin istifadəsi üçün standartlar, təlimatlar və mənbələr hazırlayır.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (İASB) ümumi məqsədli maliyyə hesabatlarının hazırlanması üçün dünyada standartlar, təlimatlar və mənbələr hazırlayır.

Bu Şuralar İFAC üzvləri üçün müvafiq sənədlər hazırlayır.

Həmin sənədlər mühasibat və audit sahələri üzrə müvafiq normalarla bərabər, eyni zamanda haqsız rəqabətə dair müddəaları özlərində ehtiva edir.

Bu sənədlərdən Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası tərəfindən işlənib hazırlanmış və beynəlxalq standartlara cavab verən *Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)* (Məcəllə) *xüsusi əhəmiyyətə malikdir.* Məcəllə bu peşənin ictimai maraqlar üzrə məsuliyyətini əks etdirən peşəkar mühasiblər üçün peşə etikasının fundamental prinsiplərini müəyyənləşdirir. Bu prinsiplər peşəkar mühasibdən gözlənilən davranış standartını müəyyən edir. Fundamental prinsiplərə tamlıq, obyektivlik, peşəkar səriştə və müvafiq yanaşma, məxfilik və peşəkar davranış daxildir.

Məcəllə, peşəkar mühasibdən fundamental prinsiplərə əməl olunmama ilə əlaqəli potensial təhlükələrin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və onlara qarşı müvafiq tədbirlərin görülməsini tələb edən konseptual əsasları yaradır. Konseptual əsaslar bu Məcəllənin etik tələblərinə əməl etməkdə və ictimai maraqlar naminə fəaliyyət göstərmək məsuliyyətini yerinə yetirməkdə peşəkar mühasiblərə kömək edir.

Audit, təhlil və digər təminat tapşırıqları üçün Məcəllə bu tapşırıqlarla bağlı müstəqilliyə təhlükələr üzrə konseptual əsasların tətbiqi ilə müəyyən edilmiş *Beynəlxalq Müstəqillik Standartlarını* müəyyən edir.

Məcəllədə göstərilən fundamental prinsiplərə və audit, təhlil və digər təminat tapşırıqları ilə bağlı edilmiş *Beynəlxalq Müstəqillik Standartlarına əməl edilməməsi digər neqativ hallarla bərabər* haqsız rəqabət hallarının da yaranmasına səbəb ola bilər.

| SN | Fundamental prinsiplər | Açıqlaması | Prinsipin pozulmasının yarada biləcəyi haqsız rəqabət halları |
|---|---|---|---|
| 1 | Tamlıq | Bütün peşəkar və işgüzar münasibətlərdə düzgün və vicdanlı olmaq; | rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;<br>rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;<br>istehlakçıların çaşdırılması. |
| 2 | Obyektivlik | Peşəkar və işgüzar qərarlarda yanlışlığa yol verməmək üçün qərəzliliyə, maraqların toqquşmasına və ya başqalarına lazımsız şəkildə təsir göstərilməsi hallarına yol verməmək; | rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;<br>rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;<br>haqsız işgüzarlıq davranışı;<br>istehlakçıların çaşdırılması. |
| 3 | Peşəkar səriştə və müvafiq yanaşma | müştərinin və ya işəgötürənin praktikada mövcud tendensiyalara, qanunvericiliyə və üsullara əsaslanan səriştəli peşəkar xidmət qəbul etməsini təmin etmək üçün tələb olunan səviyyədə peşəkar bilik və bacarıqlara malik olmaq; habelə<br>Səylə tətbiq olunan texniki və | rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;<br>rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;<br>haqsız sahibkarlıq fəaliyyəti;<br>haqsız işgüzarlıq davranışı; |

| | | | |
|---|---|---|---|
| | | peşəkar standartlara uyğun fəaliyyət göstərmək; | |
| 4 | Məxfilik | Peşəkar və işgüzar münasibət və əlaqələr nəticəsində əldə olunan məlumatların məxfiliyinə hörmətlə yanaşmaq; | rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;<br>haqsız işgüzarlıq davranışı |
| 5 | Peşəkar davranış | Müvafiq qanunlara və qaydalara əməl etmək və peşəni şübhə altına alan və ya hörmətdən salan hər hansı hərəkətə yol verməmək. | haqsız işgüzarlıq davranışı |
| 6 | *Müstəqillik* | Müstəqillik – obyektivlik və dürüstlük prinsiplərinə bağlıdır və aşağıdakıları özündə ehtiva edir:<br>Düşüncə müstəqilliyi – peşəkar mühakiməyə mane olacaq heç bir təsirə məruz qalmadan nəticə çıxarmağa və beləliklə, dürüst davranmağa, obyektiv olmağa və peşəkar inamsızlığı qorumağa imkan verən düşüncə tərzi.<br>Davranış müstəqilliyi – məntiqli və məlumatlı üçüncü tərəfin şirkətin və ya audit qrupu üzvünün dürüstlüyünün, obyektivliyinin və ya peşəkar inamsızlığının pozulması qənaətinə gələcək dərəcədə əhəmiyyətli fakt və hallardan qaçmaq. | Düşüncə və davraniş müstəqilliyini itirməyin müqabilində daha əlverişli mövqe, yüksək maliyyə üstünlüyü , az əmək və vaxt sərfi, aşağı səviyyəli səriştə tələb edən audit tapşırığı əldə oluna bilər. |

Maraqların toqquşması fundamental prinsiplərə riayət etməklə bağlı təhlükələr də yarada bilər. Belə təhlükələr nəticədə haqsız rəqabətə səbəb olmaqla aşağıdakı hallarda yarana bilər:

Auditor konkret məsələ ilə bağlı iki və ya daha çox müştəriyə peşəkar xidmət göstərir və bunların həmin məsələ ilə bağlı maraqları toqquşur.

Auditorun konkret məsələ ilə bağlı maraqları və xidmət göstərdiyi müştərinin həmin məsələ ilə əlaqədar maraqları münaqişə təşkil edir.

Beynəlxalq Audit standartlarının tələblərinə hər hansı dərəcədə əməl edilməməsi də haqsız rəqabət halının yaranmasını qaçılmaz edir. bu özünü daha çox aşağıdaki standartlarda büruzə verir:

200 saylı BAS: Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması

240 saylı BAS: Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti

250 saylı BAS: Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması

265 saylı BAS:Daxili nəzarətlə bağlı çatışmazlıqların idarəetməyə məsul şəxslərə və rəhbərliyə bildirilməsi

700 saylı (düzəliş edilmiş) BAS: Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi

701 saylı BAS: Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə

705 saylı (düzəliş edilmiş) BAS: Müstəqil auditorun hesabatında fərqli rəylər

706 saylı (düzəliş edilmiş) BAS: Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı

710 saylı BAS: Müqayisəli məlumatlar: müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları

720 saylı BAS: Auditi aparılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti

3. Palatanın normaiv və metodiki sənədləri

Haqsız rəqabət Palatanın aşağıdakı sənədləri ilə təsnifləşdirilmiş, onların forma və əlamətləri, bu sahədə auditorların məsuliyyəti, intizam və tənbeh tədbirləri müəyyən edilmişdir:

Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi (Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 nömrəli qərarı ilə I redaksiyada, 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmişdir).

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor Xidməti Bazarında Haqsız Rəqabətin Əlamətləri".

**HAQSIZ RƏQABƏTİN ƏLAMƏTLƏRİ**

Aşağıdakı hallar auditor xidməti bazarında haqsız rəqabət hesab edilir:

| № | Haqsız rəqabət | Haqsız rəqabətin misalları |
|---|---|---|
| 1 | Auditor təşkilatı, sərbəst auditor tərəfindən əsassız aşağı xidmət haqlarının tətbiq edilməsi. | 1. Qiymət dempinqi;<br>2. Auditə əsassız aşağı qiymətlər qoyulduğu halda məsləhət xidmətlərinin dəyərinin şişirdilməsi (eyni müştəriyə paralel olaraq audit üzrə və məsləhətlər üzrə xidmət göstərilir və bu zaman məsləhət xidmətlərinin göstərilməsinə dair müqavilə müsabiqədən kənar bağlanır). |
| 2 | Auditor təşkilatı və sərbəst auditor tərəfindən əvəlcədən sövdəşməyə əsasən əsassız yüksək qiymət haqlarının tətbiq edilməsi. | Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən digər auditor təşkilatı və ya sərbəst auditor ilə əsassız yüksək müsabiqə təklifi qiymətinin göstərilməsi barəsində sövdələşməyə gəlinməsi. |
| 3 | Auditor təşkilatı, sərbəst auditor və habelə onların təmsilçiləri tərəfindən həmin auditor təşkilatı və sərbəst auditor barədə yalan, qeyri-dəqiq və ya təhrif olunmuş məlumatların yayılması. | 1. Auditor təşkilatında çalışan və həmin təşkilatla əmək müqaviləsi əsasında fəaliyyət göstərən icazəli auditorların və mütəxəssislərin sayı barəsində məlumatların gizlədilməsi və ya təhrif edilməsi.<br>2. Auditor təşkilatının və ya sərbəst auditorun fəaliyyətinin əhatəsi, o cümlədən auditor xidməti bazarında onun mövqeyi barədə məlumatların təhrif edilməsi. |
| 4 | Göstərilən xidmətin xüsusiyyətləri, üsulları və xidmət göstərilmə yeri, onun mahiyyəti, keyfiyyəti və həcmi barədə audit olunan şəxsdə yanlış təsəvvür yaradılması. | 1. Auditor təşkilatının həqiqətdə təqdim olunan şəkildə tanınmayan və ya mövcud olmayan auditor təşkilatları şəbəkəsinin üzvü ( və ya digər formada iştirakçısı) olmasının göstərilməsi.<br>2. Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən, onların apardıqları auditlərin keyfiyyətinin kənar yoxlanmasının keçirilməsinin nəticələrinin gizlədilməsi və ya təhrif edilməsi.<br>3. Göstərilən xidmətin mahiyyəti barədə məlumatların gizlədilməsi və ya təhrif edilməsi.<br>4. Eyni müştəriyə xidmət təklif edən iki auditor təşkilatının və ya sərbəst auditorun aydiyyəti şəxs ( o cümlədən bir benefisiar olması) olmaları faktının gizlədilməsi və ya təhrif edilməsi. |
| 5 | Auditor təşkilatı, sərbəst auditor və onların təmsilçiləri tərəfindən digər auditor təşkilatları və sərbəst auditorların göstərdikləri xidmətlərlə bağlı istinad verilməyə və əsasız müqayisənin aparılması . | Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən reklam materiallarında və digər müsabiqə üçün sənədlərdə başqa auditor təşkilatlarının və sərbəst auditorların işləri barədə həqiqətə uyğun olmayan və onların mənafelərinə toxunan rəylərin və mülahizələrin verilməsi. |

| | | |
|---|---|---|
| 6 | Auditor təşkilatı və sərbəst auditor tərəfindən digər hüquqi və ya fiziki şəxsin intellektual mülkiyyətini və fərdi məhsulunu öz adına çıxmaqla, həmin intellektual mülkiyyətdən və fərdi məhsuldan qeyri -qanuni istifadə edilməsi yolu ilə auditor xidməti göstərilməsi . | Digər auditorun metodik İT proqramlarından, materiallarından qeyri-qanuni istifadə etməklə məsləhət və əlaqədar xidmətlərin göstərilməsi. |
| 7 | Qanunla qorunan kommersiya sirləri və digər məxfi məlumatların qeyri-qanuni əldə edilməsi, istifadəsi və yayılması. | 1. Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən, audit olunan hüquqi şəxsi almaq istəyən müştərinin həmin əməliyyatının müşaiyət edilməsi (hansı ki, auditor təşkilatı və ya sərbəst auditor audit zamanı bu əməliyyat üçün mühüm əməliyyat kəsb edən məlumat əldə etmişdir).<br>2. Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən eyni zamanda eyni hüquqi şəxsin alqı-satqısı əməliyyatında bir başa rəqib olan iki müştəriyə məsləhət verməsi, əldə etməsi etdiyi məlumatlardan suistifadə etməsi<br>( hansı ki, auditor təşkilatının və ya sərbəst auditorun məsləhəti bu müştərilərin rəqib mövqelərinə təsir göstərə bilər).<br>3. Bir aktivə münasibətdə qarşı- qarşıya duran tərəflərin hər ikisinə həmin aktivin qiymətləndirilməsi üzrə xidmətlərin göstərilməsi.<br>4. Aralarında hüquqi mübahisə olan müştərilərin hər ikisinin maraqlarının eyni məsələ üzrə təmsil edilməsi.<br>5. Auditorun özünün maliyyə marağı olan müəssisəyə investisiya qoyulması barədə müştəriyə tövsiyələr verməsi.<br>6. Əsas rəqibi ilə birgə müəssisəsi və ya digər marağı olduğu halda, müştəriyə onun rəqabət qabiliyyəti barəsində mühüm strateji məsləhət verməsi.<br>7. Auditor təşkilatının və ya sərbəst auditorun özünün almaq istədiyi hüquqi şəxs barəsində həmin hüquqi şəxsin alqı-satqısı haqqında müştəriyə məsləhətlər verməsi.<br>8. Hər hansı bir məhsulun satışından auditorun mal satandan komission haqq və ya lisenziya ödənişi aldığı halda həmin məhsulun alışı ilə əlaqədar müştəriyə məsləhət xidmətləri göstərməsi. |

**HAQSIZ RƏQABƏT İLƏ MÜBARİZƏ: TƏŞKİLİ VƏ METODLARI**

Haqsız rəqabətə qarşı mübarizə aşağıdakı kimi təşkil oluna bilər:

*- Auditor fəaliyyətində Haqsız rəqabətə qarşı mübarizə sahəsində tənzimləməni həyata keçirən orqan- Palatanın səlahiyyətləri çərçivəsində.*

*- Auditorlar və bazar subyektləri çərçivəsində. Bu mübarizə antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının və audit sahəsində tənzimləməni həyata keçirən orqan- Palatanın səlahiyyətləri vasitəsi ilə həyata keçirilir.*

***Auditor fəaliyyətində Haqsız rəqabətə qarşı mübarizə sahəsində tənzimləməni həyata keçirən orqan- Palatanın səlahiyyətləri çərçivəsində.***

Haqsız rəqabətə qarşı mübarizə sahəsində araşdırma və intizam tədbirləri sisteminin tətbiqi üçün aşağıdakılar əsas götürülür:

1) Auditorlar Palatası Şurası yanında müvafiq Komitələrin təqdimatları;
2) Auditorlar Palatasının müvafiq struktur bölmələrinin təqdimatları;
3) Aparılmış auditlərin keyfiyyətinə nəzarət tədbirlərinin materialları;

4) Sifarişçi təsərrüfat subyektlərinin müraciətləri;
5) Səlahiyyətli dövlət orqanlarının müraciətləri;
6) QHT-lər və Vətəndaş cəmiyyətləri instututlarının müraciətləri;
7) KİV və sosial şəbəkələrin məlumatları;
8) Auditor xidmətinin istifadəçiləri və digər şəxslər tərəfindən daxil olmuş məlumat və müraciətlər.
9) Auditorların müraciətləri;
10)Sosial sorğuların məlumatları.

Auditor xidməti üzrə Haqsız rəqabətə qarşı mübarizə sahəsində araşdırmalar əvvəlki abzasda göstərilən faktlar və müraciətlər nəzərə alınmaqla Auditorlar Palatası Şurasının qərarları, Auditorlar Palatası sədrinin əmr və sərəncamları əsasında belə səlahiyyətlərə malik Komitə və struktur bölmə tərəfindən aparılır.

Auditorlar Palatası Şurasının qərarlarında, Auditorlar Palatası sədrinin əmr və sərəncamlarında göstərilən müddət ərzində araşdirma zamanı təqdim olunan ilkin sənədlər əsasında müvafiq təhlillər aparılır, təsnifləşdirmələr edilir və aidiyyəti rəy (hesabat) verilir). Həmin rəy (hesabat) Palata Şurasında müzakirəyə çıxarıla bilər.

Qəbul olunmuş qərar barəsində maraqlı tərəflər rəsmi qaydada məlumalandırılır.

Araşdırmanın nəticəsi olaraq Haqsız rəqabətə yol vermiş auditorun məsuliyyəti müəyyən edilir və haqqında müvafiq inzibati/tənbeh tədbirləri görülür.

Auditorlar Palatasının müvafiq struktur bölməsi tərəfindən haqsiz rəqabətə yol vermiş auditorların və auditor təşkilatlarının reyestri aparılır. Reyestrin məlumatlarından auditorların reytinqinin müəyyənləşdirilməsində, keyfiyyətə nəzarət tədbirləri və davamlı peşə təhsili planlarının, müvafiq qrafiklərin tərtibində vəs. istifadə edilir.

Haqsız rəqabət halları və maraqlar toqquşması faktına dair qəbul olunmuş qərar barəsində Palatanın internet saytında məlumat yerləşdirilir.

## HAQSIZ RƏQABƏT HALLARINA GÖRƏ MƏSULİYYƏT

Palata öz səlahiyyətləri daxilində haqsız rəqabətə qarşı mübarizədə Palata Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 nömrəli qərarı ilə I redaksiyada, 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"ndə nəzərdə tutulan intizam/tənbeh tədbirləri görə bilər.

Bu tədbirlər aşağıdakılardır:

| № | Haqsız rəqabət | Haqsız rəqabətin misalları | *Tövsiyə olunan tənbeh və intizam tədbirləri* |
|---|---|---|---|
| 1 | Auditor təşkilatı, sərbəst auditor tərəfindən əsassız aşağı xidmət haqlarının tətbiq edilməsi. | 1. Qiymət dempinqi;<br>2. Auditə əsassız aşağı qiymətlər qoyulduğu halda məsləhət xidmətlərinin dəyərinin şişirdilməsi (eyni müştəriyə paralel olaraq audit üzrə və məsləhətlər üzrə xidmət göstərilir və bu zaman məsləhət xidmətlərinin göstərilməsinə dair müqavilə müsabiqədən kənar bağlanır). | *Xəbərdarlıq;*<br>*Reytinq balının aşağı salınması;*<br>*Təkrar olunan hallarda töhmət;*<br>*Növbədənkənar keyfiyyətə nəzarət yoxlamasının təyin edilməsi;*<br>*Auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| 2 | Auditor təşkilatı və sərbəst auditor tərəfindən əvəlcədən sövdəşməyə əsasən əsassız yüksək qiymət haqlarının tətbiq edilməsi. | Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən digər auditor təşkilatı və ya sərbəst auditor ilə əsassız yüksək müsabiqə təklifi qiymətinin göstərilməsi barəsində sövdələşməyə gəlinməsi. | *Reytinq balının aşağı salınması;*<br>*Töhmət;*<br>*Növbədənkənar keyfiyyətə nəzarət yoxlamasının təyin edilməsi;*<br>*Auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |

| | | | |
|---|---|---|---|
| 3. | Auditor təşkilatları və sərbəst auditorların sifarişçilər ilə qanunsuz sövdələşməsi | Auditor təşkilatları və sərbəst auditorların sifarişçilərə qanunsuz və ya əsassız ödənişlərin və maliyyələşmənin edilməsi | *Töhmət;*<br>*Növbədənkənar keyfiyyətə nəzarət yoxlamasının təyin edilməsi;*<br>*Auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| 4 | Auditor təşkilatı, sərbəst auditor və habelə onların təmsilçiləri tərəfindən həmin auditor təşkilatı və sərbəst auditor barədə yalan, qeyri-dəqiq və ya təhrif olunmuş məlumatların yayılması. | 1. Auditor təşkilatında çalışan və həmin təşkilatla əmək müqaviləsi əsasında fəaliyyət göstərən auditorların və mütəxəssislərin sayı barəsində məlumatların gizlədilməsi və ya təhrif edilməsi.<br>2. Auditor təşkilatının və ya sərbəst auditorun fəaliyyətinin əhatəsi, o cümlədən auditor xidməti bazarında onun mövqeyi barədə məlumatların təhrif edilməsi. | *Reytinq balının aşağı salınması;*<br>*Töhmət;*<br>*Növbədənkənar keyfiyyətə nəzarət yoxlamasının təyin edilməsi;*<br>*Auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| 5 | Göstərilən xidmətin xüsusiyyətləri, üsulları və xidmət göstərilmə yeri, onun mahiyyəti, keyfiyyəti və həcmi barədə audit olunan şəxsdə yanlış təsəvvür yaradılması. | 1. Auditor təşkilatının həqiqətdə təqdim olunan şəkildə tanınmayan və ya mövcud olmayan auditor təşkilatları şəbəkəsinin üzvü (və ya digər formada iştirakçısı) olmasının göstərilməsi.<br><br>2. Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən, onların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarət yoxlamasının keçirilməsinin nəticələrinin gizlədilməsi və ya təhrif edilməsi.<br><br>3. Göstərilən xidmətin mahiyyəti barədə məlumatların gizlədilməsi və ya təhrif edilməsi.<br><br>4. Eyni müştəriyə xidmət təklif edən iki auditor təşkilatının və ya sərbəst auditorun aidiyyəti şəxs ( o cümlədən bir benefisiar olması) olmaları faktının gizlədilməsi və ya təhrif edilməsi. | *Xəbərdarlıq.*<br>*Təkrar olunan hallarda töhmət.*<br><br>*Xəbərdarlıq.*<br>*Reytinq balının aşağı salınması;*<br>*Növbədənkənar keyfiyyətə nəzarət yoxlamasının təyin edilməsi;*<br><br>*Xəbərdarlıq.*<br>*Təkrar olunan hallarda töhmət.*<br><br>*Xəbərdarlıq.*<br>*Təkrar olunan hallarda töhmət* |
| 6 | Auditor təşkilatı, sərbəst auditor və onların təmsilçiləri tərəfindən digər auditor təşkilatları və sərbəst auditorların göstərdikləri xidmətlərlə bağlı istinad verilməyə və əsasız müqayisənin aparılması. | Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən reklam materiallarında və digər müsabiqə üçün sənədlərdə başqa auditor təşkilatlarının və sərbəst auditorların işləri barədə həqiqətə uyğun olmayan və onların mənafelərinə toxunan rəylərin və mülahizələrin verilməsi. | *Töhmət.*<br>*Reytinq balının aşağı salınması;*<br>Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;<br>*Təkrar olunan iki və daha çox halda auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |

| | | | |
|---|---|---|---|
| 7 | Auditor təşkilatı və sərbəst auditor tərəfindən digər hüquqi və ya fiziki şəxsin intellektual mülkiyyətini və fərdi məhsulunu öz adına çıxmaqla, həmin intellektual mülkiyyətdən və fərdi məhsuldan qeyri -qanuni istifadə edilməsi yolu ilə auditor xidməti göstərilməsi . | Digər auditorun metodik İT proqramlarından, materiallarından qeyri-qanuni istifadə etməklə məsləhət və əlaqədar xidmətlərin göstərilməsi. | *Xəbərdarlıq. Töhmət.*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;*<br>*Təkrar olunan iki və daha çox halda auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| 8 | Qanunla qorunan kommersiya sirləri və digər məxfi məlumatların qeyri-qanuni əldə edilməsi, istifadəsi və yayılması. | 1. Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən, audit olunan hüquqi şəxsi almaq istəyən müştərinin həmin əməliyyatının müşaiyət edilməsi (auditor təşkilatı və ya sərbəst auditorun audit zamanı bu əməliyyat üçün mühüm əhəmiyyət kəsb edən məlumat əldə etdiyi halda). | *Xəbərdarlıq.*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;*<br>*Təkrar olunan iki və daha çox halda auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| | | 2. Auditor təşkilatı və ya sərbəst auditor tərəfindən eyni zamanda eyni hüquqi şəxsin alqı- satqısı əməliyyatında bir başa rəqib olan iki müştəriyə məsləhət verməsi, əldə etməsi etdiyi məlumatlardan sui-istifadə etməsi (auditor təşkilatının və ya sərbəst auditorun məsləhəti bu müştərilərin rəqib mövqelərinə təsir göstərə bildiyi halda). | *Xəbərdarlıq.*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;*<br>*Təkrar olunan iki və daha çox halda auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| | | 3. Bir aktivə münasibətdə qarşı-qarşıya duran tərəflərin hər ikisinə həmin aktivin qiymətləndirilməsi üzrə xidmətlərin göstərilməsi. | *Xəbərdarlıq.*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;*<br>*Təkrar olunan iki və daha çox halda auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |
| | | 4. Aralarında hüquqi mübahisə olan müştərilərin hər ikisinin maraqlarının eyni məsələ üzrə təmsil edilməsi. | *Xəbərdarlıq.*<br>*Töhmət;*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;* |

| | | | |
|---|---|---|---|
| | | 5. Auditorun özünün maliyyə marağı olan müəssisəyə investisiya qoyulması barədə müştəriyə tövsiyələr verməsi. | *Xəbərdarlıq.*<br>*Töhmət;*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;* |
| | | 6. Əsas rəqibi ilə birgə müəssisəsi və ya digər marağı olduğu halda, müştəriyə onun rəqabət qabiliyyəti barəsində mühüm strateji məsləhət verməsi. | *Xəbərdarlıq.*<br>*Töhmət;*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;* |
| | | 7. Auditor təşkilatının və ya sərbəst auditorun özünün almaq istədiyi hüquqi şəxs barəsində həmin hüquqi şəxsin alqı-satqısı haqqında müştəriyə məsləhətlər verməsi. | *Xəbərdarlıq.*<br>*Töhmət;*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;* |
| | | 8. Hər hansı bir məhsulun satışından auditorun mal satandan komission haqq və ya hər hansı ödəniş aldığı halda həmin məhsulun alışı ilə əlaqədar müştəriyə məsləhət xidmətləri göstərməsi. | *Xəbərdarlıq.*<br>*Töhmət;*<br>*Reytinq balının aşağı salınması;*<br>*Auditorların Peşə Etikası və Üzvlük Komitəsinin yoxlaması;* |
| 9 | Haqsız rəqabət yaradan digər hallar | 1. Bir sifarişçidən daxil olan xidmət haqqının auditorun ümumi gəlirlərində əhəmiyyətli xüsusi çəkiyə malik olması (15%-dən çox)<br>2. Qısa zaman ərzində çoxsaylı audilərin aparılması (hər auditə 3-gündən az sərf edilmməsi və ya böyük dövriyyəyə malik sifarişçidə az vaxt ərzində audit keçirilməsi) | *Töhmət;*<br>*Növbədənkənar keyfiyyətə nəzarət yoxlamasının təyin edilməsi;*<br>*Auditor fəaliyyətinə verilən icazənin ləğvi.* |

Palatanın müvafiq struktur bölməsi tərəfindən haqsız rəqabət hallarına və maraqlar toqquşmasına yol verilməsi faktına dair hazırlanmış illik hesabat Palata Şurasında müzakirə olunduqdan sonra, hər il yanvarın 15-dək Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabata əlavə edilməklə təqdim olunur və ictimaiyyətə açıqlanır.